AZƏRBAYCAN RESPUBLİKASI
MƏDƏNİYYƏT NAZİRLİYİ

MƏDƏNİYYƏT ÜZRƏ ELMİ-METODİKİ
VƏ İXTİSASARTIRMA MƏRKƏZİ

# PROQRAM

UŞAQ MUSİQİ VƏ İNCƏSƏNƏT
MƏKTƏBLƏRİNİN

# Q A R M O N

SİNFİ ÜÇÜN



Azərbaycan Respublikası

Mədəniyyət Nazirliyi

Mədəniyyət üzrə Elmi-Metodiki və

İxtisasartırma Mərkəzi

# PROQRAM

## UŞAQ MUSİQİ VƏ İNCƏSƏNƏT MƏKTƏBLƏRİNİN QARMON SİNFİ ÜÇÜN

Bakı – 2025

***Tərtibçilər:***

**Neymət Mürsəlov**

*Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin Təhlil, təlim və tədris şöbəsinin müdiri, Əməkdar artist*

**Səadət Yusifova**

*Bakı şəhər S. Rüstəmov adına 13 nömrəli uşaq musiqi məktəbinin Xalq çalğı alətləri şöbəsinin müdiri*

***Rəyçilər:***

**Ənvər Sadıqov**

*Azərbaycan Milli Konservatoriyasının müəllimi, Xalq artisti*

**Aydın Əliyev**

*Azərbaycan Milli Konservatoriyasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru*

***Redaktor:***

**Lalə Xəlilli**

*Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin aparıcı metodisti, Ü. Hacıbəyli adına Bakı Musiqi Akademiyasının doktorantı*

# İZAHAT VƏRƏQƏSİ

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin sistemində fəaliyyət göstərən Uşaq musiqi və incəsənət məktəblərinin qarşısında duran əsas vəzifələri böyüməkdə olan gənc nəslin klassik dünya və Azərbaycan milli musiqisinin nümunələri əsasında ümumi musiqi dünyagörüşünün, bədii-estetik zövqünün, musiqi qabiliyyətlərinin və yaradıcılıq potensialının inkişaf etdirilməsi və düzgün istiqamət verilməsidir.

Hal-hazırki dövrdə təhsilin məzmunca yenilənməsi, yeni tədris proqramlarının, dərs vəsaitlərinin hazırlanması, şagird hazırlığının keyfiyyətinə nəzarət mexanizmi, bədii təhsil müəssisələrinin modernləşdirilməsi, onların maddi-texniki bazasının gücləndirilməsi, kadr potensialının möhkəmləndirilməsi qarşıya qoyulmuş əsas vəzifələrdən biridir. Bu sahədə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi tərəfindən görülən işlər musiqi mədəniyyətinin inkişafına xidmət edir. Mütəmadi olaraq Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi tərəfindən bu müəssisələrin tədris proqramlarına baxış keçirilir. Həmin proqramlara əsasən son dövrlərdə bu və ya digər musiqi alətləri üçün bəstələnmiş əsərlər daxil edilir ki, bu da şagirdlərin təkcə Azərbaycan bəstəkarlarının əsərləri ilə deyil, həmçinin bir sıra dünya xalqlarının musiqi nümunələri ilə də tanış olmalarına imkan yaradır.

Musiqi mədəniyyətinin inkişafı, uşaq və yeniyetmələrin incəsənətə cəlb edilməsi, onların bədii-estetik zövqünün formalaşması, yaradıcılıq potensialının inkişaf etdirilməsi olduqca şərəfli və məsuliyyətli bir işdir. Bu şərəfli və məsuliyyətli işdə müəllimlərin rolu çox böyükdür. Çünki hər hansı uşaq və yeniyetmənin gələcəkdə musiqi ixtisasını özünə peşə seçməsi və professional musiqiçi kimi yetişməsi məhz ilk musiqi müəllimindən, geniş mənada isə musiqi məktəbində təhsilin səviyyəsindən, tədrisin ixtisas və nəzəri fənlər baxımından kompleks şəkildə məqsədyönlü xarakter daşımasından çox asılıdır.

Uşaq musiqi və incəsənət məktəblərində ixtisas dərsləri fərdi tədris üsulu ilə aparılır. Bu baxımdan müəllim hər bir şagirdin fiziki və zehni cəhətdən imkanlarını nəzərə almalı və ona bu prinsiplər əsasında yanaşmalıdır. Müəllim qarmon alətini seçən şagirdin oturuşuna və aləti düzgün tutmasına, barmaqların dillər üzərində düzgün hərəkət etməsinə, körüyün düzgün və rəvan idarə edilməsi qaydasına ilk dərs günündən başlayaraq sonrakı dərslərdə də daim nəzarət etməlidir. Şagirdin ifaçılıq texnikasının inkişaf etməsində ifaçılıq prinsiplərinin düzgün tədris olunması mühüm əhəmiyyət kəsb edir.

İxtisas müəlliminin qarşısında duran əsas vəzifələri şagirdlərin bilik səviyyəsinin artırılmasına, istedadlı musiqiçi kimi yetişməsinə çalışmaq, onların dərslərdə müntəzəm iştirakının və hazırlıqlı gəlməsinin təmin olunması məqsədilə valideynlə mütəmadi olaraq əlaqə saxlamaq, daima öz üzərində işləyərək şagirdə şəxsi nümunə olmaq, açıq dərslər vermək, sinif konsertləri təşkil etməkdən və s. ibarətdir.

Müəllim şagirdlə ixtisas üzrə iş apararkən asandan-çətinə prinsipinə riayət etməli, onun zövqünü xalq musiqisi nümunələri əsasında tərbiyə etməli, Azərbaycan bəstəkarlarının əsərləri ilə yanaşı, xarici ölkə bəstəkarlarının əsərlərini də ifa etməyə maraq oyatmalıdır. Muğam fənninin tədrisində bir sıra tədris metodlarından istifadə oluna bilər. Müəllim şagirdə muğam fənnini tədris edərkən şifahi (danışaraq izah etmək), praktik (alətdə ifa edərək izah etmək), emosional (biliklərin, obrazların, bədii təəssüratların seçimi ilə izah etmək) tədris metodlarından istifadə edərək dərs prosesini qurmalıdır. Fərdi tədris metodu hər bir şagirdə daha dəqiq və psixoloji cəhətdən düzgün yanaşma tapmağa və ən uyğun tədris metodunu seçməyə imkan verir.

## METODİKİ GÖSTƏRİŞLƏR

### Qarmon sinfi üzrə tədris prosesinin təşkili

Şagirdin bir musiqiçi kimi yetişməsində ixtisas müəlliminin rolu böyükdür. Müəllimin ən vacib vəzifələrindən biri şagirdə seçdiyi aləti sevməyi aşılamaq və onun formalaşmasına diqqət yetirməkdir.

Dərsin başlanğıc mərhələsində müəllim tərəfindən diqqət yetirilməli olduğu məqamlar:

a) qarmon alətində ifa etməyə başlayan şagirdin yaş və fiziki cəhətdən imkanları mütləq nəzərə alınmalıdır çünki qarmon aləti öz çəkisinə görə başqa musiqi alətlərindən ağırdır və onun ifası zamanı fiziki qüvvədən daha çox istifadə olunur. Bu səbəbdən şagird üçün alətin seçilməsi müəllimin iştirakı ilə olmalı və şagirdin fiziki imkanları nəzərə alınmalı;

b) tədris müddətində qarmon alətinin normal vəziyyətdə (kökü, başqa hissələri nəzərdə tutulur) olmasına fikir verməli;

c) şagirdin ixtisas-not fənni üzrə dərslik və tədris vəsaitləri ilə təmin olunması və s.

Tədris ili ərzində ixtisas müəllimi şagirdə Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi tərəfindən uşaq musiqi və incəsənət məktəbləri üçün tərtib edilmiş fənn proqramı əsasında dərs keçməlidir. Dərsin ilk günü müəllim şagirdə alətin tarixindən, qarmon alətində sağ və sol əl ilə birgə ifa imkanlarından, xüsusiyyətindən, quruluşundan, eləcə də tanınmış ifaçılardan söhbət açmalıdır. İlk dərsdən başlayaraq müəllim şagirdin oturuşuna və alətin düzgün tutulmasına dair fikir verməli, ibtidai nəzəri biliklər: not sətri, açar, xanə və xanə ölçüləri, pauzalar, alterasiya işarələri, templər və s. haqqında ətraflı məlumat verməlidir. Müəllim dərsi tədris edərkən sadədən mürəkkəbə doğru prinsipini əsas götürərək onun düzgün qurulmasına, yorucu olmamasına çalışmalıdır.

***Azərbaycan qarmonunun quruluşu:***

- dördbucaqlı qutu şəklində gövdə;
- körük;
- səs hissələri;
- klaviş mexanizmi (yəni dil, düymələr);
- aşırma kəmər və sol əl üçün keçirici kəmər.

## Şagirdin düzgün oturuş və alətdən istifadə qaydası

Şagirdin ifaçılıq texnikasının inkişaf etdirilməsi, onun qarmonu düzgün tutmasından və oturuş qaydalarına riayət etməsindən çox asılıdır. Şagird stolun ön tərəfində oturaraq sağ ayağın pəncəsini yerə möhkəm dayamalı, sol ayağın pəncəsi sağ ayağın dabanı istiqamətində qoyulmalıdır. Bu zaman sol ayaq bir az dizdən bükülü vəziyyət alır ki, bu da səs körüyünün maneəsiz hərəkətinə imkan yaradır. İfa zamanı (bədənin gövdəsi düz saxlanılmalı) qarmonu sinəyə sıxmaq olmaz, sinə ilə qarmonun arasında məsafə olmalıdır. Şagird başını düz tutaraq irəli baxmalı və qarşısına qoyulmuş not ilə gözü arasında məsafə 30-40 sm olmalıdır. Kiçik boylu şagirdlər üçün kiçik stul seçmək və yaxud sağ ayağın altına dayaq qoymaq lazımdır. Qrif sağ ayaq budunun üzərində elə möhkəm yerləşməlidir ki, ifa zamanı dayanıqlı olsun. Sağ gövdənin kəməri sağ çiyinin ortasında yerləşməlidir. Sağ və sol kəmərlərin köməyi ilə körüyü açmaq, sol korpusun və sağ ayağın vasitəsilə körüyü yığmaq lazımdır. Kəmərlərin düzgün tənzimlənməsi və qarmonun sağ korpusunun möhkəm saxlanılması sağ və sol əllərin sərbəst işləməsinə şərait yaradır. Sağ qolun dirsəyini

bədənə sıxmaq olmaz, dirsək bədəndən aralı və sərbəst saxlanılmalıdır ki, sağ əlin biləyi həddindən artıq bükülməsin.

## Səs körüyünün açılıb-bağlanması qaydaları.

Qarmon alətinin tədris prosesində çox vacib və mürəkkəb məsələlərdən biri də körüyünün düzgün açılıb bağlanılmasıdır. Müəllim şagirdin körüyü düzgün idarə edilməsi qaydasına ilk dərs günündən və sonrakı dərslərdə də daim nəzarət etməlidir.

*Səs körüyünün hərəkəti zamanı aşağıdakılara əməl etmək vacibdir:*

a) ifaya başlamazdan əvvəl körük bağlı vəziyyətdə olmalı;
b) körüyün düz rəvan və bərabər ölçülərlə açılıb bağlanılmasına və ifa vaxtı ondan qənaətlə istifadə olunmasına diqqət yetirməli;
c) qarmonda səs körüyü yığılarkən içindəki hava ehtiyatı nisbətən çox işləndiyi üçün daha çox qənaət etməli;
d) eyni bir səs ifa olunarkən körüyün hərəkətini dəyişmək olmaz. Bu zaman səs qırılır və səsin axıcılığı pozulur;
e) körüyün **П**-açılıb**, V**-bağlanma qaydalarının düzgün vərdişinə nail olmağa çalışmalı.

## Applikatura

Əsəri şagirdə öyrədərkən applikaturanın düzgün seçilməsinə fikir vermək lazımdır. Applikatura ifa zamanı barmaqların klaviatura üzərində düzgün və məqsədəuyğun yerləşdirilməsini bildirir. Barmaqların düzgün applikaturası əsasən qamma və arpecio çalınarkən təyin olunur. Qammaların və arpecioların ifa olunması prosesində sağ və sol əlin barmaqlarının yerdəyişməsi və baş barmağın üçüncü və ya dördüncü barmağın altına qoyulması prinsipi öyrənilir. Baş və çeçələ barmaqları qara dillər üzərində işlətmək məsləhət görülmür. Belə olduğu halda bilək klaviatura üzərində öz vəziyyətini itirə bilər. Belə ki, birinci barmağı qara dil üzərinə qoyduqdan sonra növbəti ağ dilə ikinci barmağı qoymaq mümkün olmur. Lakin ayrı-ayrı hallarda baş və çeçələ barmaqlarını qara dillər (yarımpərdələr) üzərinə qoyulması lazım gəlir. İfa zamanı sağ əlin içi qrifdən bir qədər aralıda elə vəziyyətdə saxlanılmalıdır ki, barmaqlar klaviatura üzərində aşağı və yuxarı rahat və sərbəst hərəkət etsin. Ovucun içini qrifin kənarına söykəmək, baş barmağı qrifin arxasına aparmaq olmaz.

Müəllim bütün tədris prosesində şagirdin sağ və sol əlinin barmaqlarının klaviatura üzərində düzgün vəziyyətdə olmasına nəzarət etməlidir.

## Məşğələlər, qammalar, etüdlər

Qarmonun tədrisində qamma, etüd və məşğələlərin keçilməsi əsas şərtlərdən biridir. Uşaq musiqi və incəsənət məktəblərinin qarmon sinfi üçün tərtib olunmuş proqrama əsasən 5 işarəli major və minor qammaları tədris edilməlidir. Major qammaları arpecioları ilə birlikdə çərək, səkkizlik, onaltılıq notlara hər biri iki dəfə, minor qammaları həmin qayda üzrə natural, harmonik, melodik şəkildə hər biri bir dəfə ifa edilməlidir. Digər musiqi alətlərində olduğu kimi məşğələ və etüdlər qarmonun texniki imkanlarını şagirdlərə daha yaxşı mənimsətmək üçün öyrədilir.

## Notu üzündən oxumaq

Şagirdə notu üzündən oxumaq bacarığını mənimsətmək prosesində düzgün not repertuarı seçmək əsas şərtlərdən biridir. Bu məqsədə nail olmaq üçün sadədən mürəkkəbə doğru prinsipini əsas tutmaq lazımdır. Notu üzündən oxuyarkən şagirdin görmə və eşitmə orqanları, beyin və əsəb sistemi fəaliyyətdə olur. Əsəri ilk dəfə notla ifa etməyə başlayarkən, müəllim şagirdin notu düzgün oxumasına, ölçüsünə, hansı qammada yazılmasına və həmin qammanın işarələrinə, tempinə və başqa işarələrə fikir verməsinə nəzarət etməlidir.

## Muğam fənninin tədrisi

Muğamın birinci sinif şagirdlərinə öyrədilməsinin olduqca çətin olmasını nəzərə alaraq bu sinfin proqramına daxil edilməyib. Proqrama birinci sinif şagirdləri üçün Azərbaycan xalq mahnıları, rəqsləri və rənglərinin bir sıra nümunələri daxil edilmişdir.

İkinci sinifdən başlayaraq Azərbaycan xalq mahnı, rəqs və rəngləri ilə yanaşı muğam fənni də tədris edilməlidir.

Dördüncü sinifdən başlayaraq şagirdlərə zərbi muğamlar öyrədilməlidir.

Buraxılış imtahanında şagird müəllimin mülahizəsinə görə bütün tədris illərində keçdiyi muğamlardan birini, bir zərbi muğam və iki Azərbaycan xalq rəqsi ifa etməlidir.

## İŞ PLANININ TƏRTİBİ

Not və muğam ixtisası üzrə iş planı ixtisas müəllimi tərəfindən tədris ilinin birinci və ikinci yarımilliyinin əvvəlində yazılır və şöbə müdiri tərəfindən yoxlanılıb təsdiq edilir. Müəllim şagirdin iş planını qarmon sinfi üçün tərtib edilmiş tədris proqramına uyğun olaraq yazmalıdır. Proqramda hər sinif üzrə tövsiyə olunan qammaların, pyeslərin, xalq rəqslərinin, muğamların siyahısı verilmişdir. İş planı yazılarkən müəllim şagirdin ifaçılıq texnikasını və fərdi imkanlarını nəzərə almalı və ona uyğun repertuar seçməlidir. Şagirdlərin ifaçılıq bacarıqlarını nəzərə alaraq müəllim tədris proqramında tövsiyə olunan əsərləri başqa əsərlərlə əvəz edə bilər. Əlbəttə ki, həmin əsərlər lazımi bədii tələblərə cavab verməli və mürəkkəblik dərəcəsi etibarilə şagirdin ifaçılıq imkanlarına uyğun olmalıdır.

İş planı təsdiq edildikdən sonra şagirdin fərdi vərəqəsinə yazılır və şöbə müdiri tərəfindən təsdiq edilir. Şagirdin fərdi vərəqəsi yazılarkən orada göstərilən qeydlərin ardıcılığına riayət edilməlidir. Belə ki, əvvəl üzündən ifa ediləsi məşğələlər, ardınca qammalar, etüdlər, əsərlər, muğam proqramı, rəqslər, mahnı və rənglər yazılmalıdır.

## MÜVƏFFƏQİYYƏTİN HESABA ALINMASI VƏ ŞAGİRDLƏRİN ÇIXIŞLARI

Tədris ili ərzində müəllim şagirdin iş planında nəzərdə tutulmuş proqramı yerinə yetirilməsinə uyğun olaraq ayda bir neçə dəfə qiymətləndirmə aparmalıdır. Yarımillik qiymətlərin əsasında tədris ilinin sonunda şagirdlərə illik, il ərzində göstərilən akademik dinləyiş və imtahan nəticələrinə uyğun isə yekun qiymətlər verilir.

Akademik dinləyiş və imtahanlar birinci yarımildə yanvar ayında, ikinci yarımildə iyun ayında keçirilir. İkinci sinifdən başlayaraq qammalardan texniki dinləyiş keçirilməlidir. Texniki dinləyiş birinci yarımildə noyabr ayında, ikinci yarımildə mart ayında keçirilməlidir.

İlin ikinci yarısından başlayaraq beşinci siniflər üçün dinləyiş təşkil edilir. Həmin dinləyişdə təsadüf edilən bəzi nöqsanlar aşkar edildiyi zaman növbəti dinləyiş üçün bunların aradan qaldırılması tapşırılır.

# BİRİNCİ SİNİF (NOT)

## İLLİK TƏLƏBAT

Tədris ili müddətində şagird aşağıdakıları keçməlidir:

**I YARIMİL** – Qarmon aləti və onun hissələri ilə tanışlıq, düzgün oturuş və qarmonun düzgün tutulma qaydası, körüyün düzgün açılıb-bağlanması, barmaqların dillər üzərində düzgün, ardıcıl hərəkətinin öyrədilməsi. Qarmon alətinin tarixi haqqında ümumi məlumatın verilməsi.

İbtidai nəzəri biliklərin verilməsi.

X.Dadaşov “Qarmon məktəbi” və N.Rəsulovun “Qarmon məktəbi” dərsliklərindən məşğələlər, etüdlər, pyeslər keçməli.

Do major (C Dur), lya minor (a moll) qammalarını arpecioları ilə birlikdə yarım və çərək notlarla ifa etməli.

**II YARIMİL** – X.Dadaşov “Qarmon məktəbi” və N.Rəsulovun “Qarmon məktəbi” dərsliklərindən 2-4 məşğələ keçməli.

Sol major (G Dur), mi minor (e moll), Fa major (F Dur), re minor (d moll) qammalarını arpecioları ilə birlikdə yarım və çərək notlarla ifa etməli.

Tədris ili ərzində 4-6 etüd, 6-8 pyes keçməli.

Tədris zamanı müəllimin məqsədi hər bir şagirdin bünövrəsini mükəmməl qurmaq, onu düzgün istiqamətə yönəltməkdir.

## TƏXMİNİ REPERTUAR

### AZƏRBAYCAN BƏSTƏKARLARININ ƏSƏRLƏRİ

| | |
|---|---|
| Ü.Hacıbəyli | Axşam oldu |
| | Yaxşı yol |
| | Pilotlar |
| | Uşaq və buz |
| F.Əmirov | Quşlar |
| | Qatar |
| | Məktəblilər nəğməsi |
| | Bip-bipin nəğməsi |
| A.Zeynallı | Beşik mahnısı |
| S.Rüstəmov | Qayıq |

| | |
|---|---|
| | Yağdı yağışlar |
| Ə.Abbasov | Pyes |
| S.Ələsgərov | Sözsüz mahnı |
| | Mahnı |
| Q.Hüseynli | Cücələrim |
| | Yürüş mahnısı |
| Niyazi | Marş |
| A.Rzayeva | Kukla |
| | Sürücü |
| | Sabahın ustaları |
| | Qaranquş |
| S.Hacıbəyov | Oynaq topum |
| M.Nəsirbəyov | Yağış |
| | Quşlar |
| | Mahnı |
| M.Əhmədov | Marş |
| T.Hacıyev | Balaca neftçiyəm |
| O.Zülfüqarov | Can nənə |

## XARİCİ ÖLKƏ BƏSTƏKARLARININ ƏSƏRLƏRİ

| | |
|---|---|
| V.Şainski | Timsah Genanın mahnısı (“Çeburaşka” cizgi filmindən) |
| M.Qlinka | Bülbül |
| | Polka |
| E.Popov | Mahnı |
| M.Krasyev | Şən qazlar |
| | Küknar ağacı |
| İsveç xalq mahnısı | Ququ quşu |
| Gürcü xalq mahnısı | Suliko |
| L.V.Bethoven | Rəqs |
| N.Mamontova | Quş |
| A.Qedike | Balaca dovşan |
| İ.S.Bax | Menuet |
| D.Kabalevski | Kiçik mahnı |

| | |
|---|---|
| A.Flippenko | Gedək moruq yığmağa |
| F.Şubert | Vals |
| P.İ.Çaykovski | Rus xalq mahnısı |
| D.Kabalevski | Kiçik Polka |

---

***Qeyd:*** *Müəllim mülahizəsinə görə proqramda verilən təxmini repertuarı başqaları ilə də əvəz edə bilər.*

## BİRİNCİ SİNİF (MUĞAM)

### İLLİK TƏLƏBAT

Tədris ili müddətində şagird aşağıdakıları keçməlidir:

**I YARIMİLDƏ** proqramda verilən təxmini repertuardan 2 – 4 kiçik həcmli Azərbaycan xalq mahnıları, rəqsləri və rəngləri keçməli.

**II YARIMİLDƏ** proqramda verilən təxmini repertuardan 4 – 6 Azərbaycan xalq mahnıları, rəqsləri və rəngləri keçməli.

### Azərbaycan xalq mahnıları

Evləri var xana-xana
Laylay
Aman ovçu
Küçələrə su səpmişəm
Qubanın ağ alması
Laçın
Sona xanım
Ay gözəl
Sudan gələn sürməli qız
Bəri bax
Reyhan
Güləbatın

## Azərbaycan xalq rəqsləri

Darçını

Kəsmə

Brilyant

Ritmik

Şəki

Nəlbəki

Aran köçü

Gülgəzi

Reyhanı

Yüzbiri

Sabirabadı

Yallı (Dəhnə)

Dərbəndi

## Rənglər

Bayatı-Kürd rəngi

Mahur rəngi

Rast rəngi

Bayatı-Şiraz rəngi

Çahargah rəngi

Şur rəngi

Şüştər rəngi

Segah rəngi

---

***Qeyd:*** *Müəllim mülahizəsinə görə proqramda verilən təxmini repertuarı başqaları ilə də əvəz edə bilər.*

# TƏDRİS İLİNDƏ KEÇİRİLƏN DİNLƏYİŞLƏR

**I yarımildə yanvar ayında keçirilən qapalı dinləyişin tələbatı:**

– keçilənlərin ətrafında sorğu;

– 2 müxtəlif xarakterli pyes;

– 1 rəqs, 1 rəng və ya 1 mahnı ifa etmək.

**II yarımildə iyun ayında keçirilən akademik dinləyişin tələbatı:**

– 1 etüd;

– 2 müxtəlif xarakterli pyes;

– 1 rəqs, 1 rəng, 1 mahnı ifa etmək.

---

***Qeyd:*** *Texniki və akademik dinləyişlər zamanı şagirdin qiymətləndirilməsində müəllimin rəyi nəzərə alınmalıdır.*

## İKİNCİ SİNİF (NOT)

### İLLİK TƏLABAT

Tədris ili müddətində şagird aşağıdakıları keçməlidir:

**I YARIMİL** – X.Dadaşov “Qarmon məktəbi” və N.Rəsulovun “Qarmon məktəbi” dərsliklərindən 2-4 məşğələ keçməli.

Re major (D Dur), si minor (h moll) çərək, səkkizlik notlarla, arpeciolarla birlikdə ifa etməli.

**II YARIMİL** – X.Dadaşov “Qarmon məktəbi” və N.Rəsulovun “Qarmon məktəbi” dərsliklərindən 2-4 məşğələ keçməli.

Si bemol major (B Dur), sol minor (g moll) qammalarını çərək, səkkizlik notlarla, arpeciolarla birlikdə ifa etməli.

Tədris ili ərzində 2-4 etüd, 4-6 müxtəlif xarakterli pyes keçməli.

## TƏXMİNİ REPERTUAR

### AZƏRBAYCAN BƏSTƏKARLARININ ƏSƏRLƏRİ

| | |
|---|---|
| Ü.Hacıbəyli | Əsgərin şadlığı |

| | |
|---|---|
| | (“Arşın mal alan” operettasından) |
| | Ey səba yeli |
| | Döyüşçülər marşı |
| | Melodiya |
| Q.Qarayev | Dəniz neftçilərinin mahnısı |
| F.Əmirov | Aslanın mahnısı (“Səhər” k/f-dən) |
| | Zarafat |
| | Skertso |
| C.Cahangirov | Yürüş mahnısı |
| S.Rüstəmov | Düşərgəmiz |
| | Alagöz |
| | Sərhədçilərin marşı |
| | Sumqayıt |
| | Dəstə rəhbəri |
| | Sürəyya |
| | Qaranquşlar gəldilər |
| T.Quliyev | Dostluq haqqında mahnı |
| A.Rzayeva | Qış mahnısı |
| H.Nəcəfova | Günəş olaram məndə |
| M.Adil Gəray | Qurucular mahnısı |
| P.Bülbüloğlu | Şən Azərbaycan |
| C.Quliyev | Əsgər marşı |
| E.Sabitoğlu | Siravi Əhməd |
| R.Mirişli | Bayram axşamlarında |
| M.Əhmədov | Bayram mahnısı |

## XARİCİ ÖLKƏ BƏSTƏKARLARININ ƏSƏRLƏRİ

| | |
|---|---|
| İ.Haydn | Andante |
| V.A.Motsart | Yumoreska |
| | Menuet |
| D.Kabalevski | Bizim ölkə |
| V.Solovyov-Sedoy | Moskva axşamları |
| D.Şostakoviç | Rəqs |

| | |
|---|---|
| L.Bekman | Yolka |
| A.Qedike | Şən mahnı |
| Çex xalq mahnısı | Pinəçi |
| A.Çinyakov | Dənizçilər rəqsi |
| P.İ.Çaykovski | Uşaq mahnısı |

## İKİNCİ SİNİF (MUĞAM)

## İLLİK TƏLƏBAT

Tədris ili ərzində Bayatı-Kürd və Rast muğamlarını aşağıdakı şöbələrlə keçməli:

**Bayatı-Kürd:**
Bayatı-Kürd
Bayatı-Əcəm
Azərbaycan ilə ayaq

**Rast:**
Bərdaşt
Mayə
Üşşaq
Hüseyni
Vilayəti
Rast muğamına ayaq

6-8 Azərbaycan xalq rəqsi
2-4 Azərbaycan xalq mahnısı
2 muğam rəngi keçilməlidir.

## TƏXMİNİ REPERTUAR

### Azərbaycan xalq rəqsləri

İnnabı
Dilican
Qəşəngi
Xurcun
Mərcanı

Köçəri

Qıtqılıda

Tənzərə

Yaqutu

Əsgərani

Nazpəri

Mixəyi

Fikrəti

(müəllifi: Ə.Əşrəfzadə)

---

***Qeyd:*** *Müəllim mülahizəsinə görə proqramda verilən təxmini repertuarı başqaları ilə də əvəz edə bilər.*

## TƏDRİS İLİ ƏRZİNDƏ KEÇİRİLƏN TEXNİKİ DİNLƏYİŞLƏR

Noyabr ayı – qamma, etüd və musiqi terminləri.

Mart ayı – qamma, etüd və musiqi terminləri.

## AKADEMİK DİNLƏYİŞLƏR

**I yarımildə yanvar ayında keçirilən akademik dinləyişin tələbatı:**

- 2 müxtəlif xarakterli pyes;
- 1 muğam;
- 2 rəqs.

**II yarımildə iyun ayında keçirilən akademik dinləyişin tələbatı:**

- 2 müxtəlif xarakterli pyes;
- 1 muğam;
- 2 rəqs.

---

***Qeyd:*** *Texniki və akademik dinləyişlər zamanı şagirdin qiymətləndirilməsində müəllimin rəyi nəzərə alınmalıdır.*

## ÜÇÜNCÜ SİNİF (NOT)

## İLLİK TƏLƏBAT

Tədris ili müddətində şagird aşağıdakıları keçməlidir:

**I YARIMİL** – X.Dadaşov "Qarmon məktəbi" və N.Rəsulovun "Qarmon məktəbi" dərsliklərindən 2-4 məşğələ keçməli.

Lya major (A Dur), fa diyez minor (fis moll), qammalarını çərək, səkkizlik, onaltılıq notlarla, arpeciolarla birlikdə ifa etməli.

**II YARIMİL** – X.Dadaşov "Qarmon məktəbi" və N.Rəsulovun "Qarmon məktəbi" dərsliklərindən 2-4 məşğələ keçməli.

Mi bemol major (Es Dur), do minor (c moll) qammalarını çərək, səkkizlik, onaltılıq notlarla, arpeciolarla birlikdə ifa etməli.

Tədris ili ərzində 2-4 etüd, 4-6 müxtəlif xarakterli pyes keçməli.

## TƏXMİNİ REPERTUAR

### AZƏRBAYCAN BƏSTƏKARLARININ ƏSƏRLƏRİ

| | |
|---|---|
| Ü.Hacıbəyli | Rəqs |
| | Marş |
| | Ərəb marşı |
| | ("Leyli və Məcnun" operasından) |
| | Asiyanın rəqsi |
| | ("Arşın mal alan" operettasından) |
| M.Maqomayev | Rəqs |
| Q.Qarayev | Marş |
| | Aişənin rəqsi |
| | ("Yeddi gözəl" baletindən) |
| F.Əmirov | Mərcanənin rəqsi |
| | ("Min bir gecə" baletindən) |
| | Baharımsan |
| | Reyhan |
| | Laylay |
| S.Hacıbəyov | Kişilərin rəqsi |

| | |
|---|---|
| | (“Gülşən” baletindən) |
| C.Cahangirov | Qarabağ |
| S.Rüstəmov | Bahar olsun |
| | Səhər mahnısı |
| | Marş |
| T.Quliyev | Sevinc mahnısı |
| | Axşam görüşləri |
| | Neftçilər mahnısı |
| | Coş Dənizim |
| | Rəqs |
| | Mahnı |
| | (“Qızmar günəş altında” k/f-dən) |
| | Bağçamız |
| | Qəmgin mahnı |
| M.Adil Gəray | Qaytağı |
| S.Ələsgərov | Bilsəm sən gəlirsən |
| Ə.Abbasov | Aşıqsayağı |
| Niyazi | Arzu |
| P.Bülbüloğlu | Dilin can incidəndir |

## XARİCİ ÖLKƏ BƏSTƏKARLARININ ƏSƏRLƏRİ

| | |
|---|---|
| P.İ.Çaykovski | Rəqs |
| | (“Qu gölü” baletindən) |
| E.Qriq | Vals |
| Macar xalq rəqsi | Çardaş |
| V.A.Motsart | Volınka |
| | Vals |
| | Laylay |
| R.Şuman | Cəsur atlı |
| F.Şopen | Arzu |
| V.Sidorov | Tanqo ”Sirr” |
| N.Rimski-Korsakov | Təlxəklər rəqsi |
| | (“Sadko” operasından) |
| J.Bize | Marş (“Karmen” operasından) |

***Qeyd:*** *Müəllim mülahizəsinə görə proqramda verilən təxmini repertuarı başqaları ilə də əvəz edə bilər.*

## ÜÇÜNCÜ SİNİF (MUĞAM)

## İLLİK TƏLƏBAT

Tədris ili ərzində Kürdü-Şahnaz və Çahargah muğamlarını aşağıdakı şöbələrlə keçməli:

| | |
|---|---|
| **Kürdü-Şahnaz:** | Şahnaz |
| | Dilkəş |
| | Şəddi-Şahnaz |
| | Azərbaycan ilə ayaq |
| **Çahargah:** | Bərdaşt |
| | Mayə |
| | Bəstənigar |
| | Çahargaha ayaq |

6-8 Azərbaycan xalq rəqsi

2-4 Azərbaycan xalq mahnısı

2 muğam rəngi keçilməlidir.

## TƏXMİNİ REPERTUAR

### Azərbaycan xalq rəqsləri

Uzundərə

Azərbaycan

Səməni

Kolxozu

Mixəkgülü

Zeynəbi

Arazı

Azərbaycan qızı

Şağanı

Sevinc
Aşqabadı
Zümrüdü
Xoşbəxtlik
Abşeron
Maralı
Keçməməsi
Novruzu
Qədim rəqs
Onluq ("Süleymani")
Dilşadı
(müəllifi: T.Dəmirov)
Kəmalə
(müəllifi: A.İsrafilov)
Nazilə
(müəllifi: A.İsrafilov)

---

***Qeyd:*** *Müəllim mülahizəsinə görə proqramda verilən təxmini repertuarı başqaları ilə də əvəz edə bilər.*

## TƏDRİS İLİ ƏRZİNDƏ KEÇİRİLƏN TEXNİKİ DİNLƏYİŞLƏR

Noyabr ayı – qamma, etüd və musiqi terminləri.
Mart ayı – qamma, etüd və musiqi terminləri.

## AKADEMİK DİNLƏYİŞ VƏ İMTAHAN

**I yarımildə yanvar ayında keçirilən akademik dinləyişin tələbatı:**

- 2 müxtəlif xarakterli pyes;
- 1 muğam;
- 2 rəqs.

**II yarımildə iyun ayında keçirilən sinifdən sinfə keçid imtahanının tələbatı:**

– 2 müxtəlif xarakterli pyes;

– 1 muğam;

– 2 rəqs.

---

***Qeyd:*** *Texniki və akademik dinləyişlər zamanı şagirdin qiymətləndirilməsində müəllimin rəyi nəzərə alınmalıdır.*

## DÖRDÜNCÜ SİNİF (NOT)

## İLLİK TƏLƏBAT

Tədris ili müddətində şagird aşağıdakıları keçməlidir:

**I YARIMİL** – Mi major (E Dur), do diyez minor (cis moll) qammalarını çərək, səkkizlik, onaltılıq notlarla, arpeciolarla birlikdə ifa etməli.

**II YARIMİL** – Lya bemol major (As Dur), fa minor (f moll) qammalarını çərək, səkkizlik, onaltılıq notlarla, arpeciolarla birlikdə ifa etməli.

Tədris ili ərzində 2-4 etüd, 4-6 müxtəlif xarakterli pyes keçməli.

## TƏXMİNİ REPERTUAR

### AZƏRBAYCAN BƏSTƏKARLARININ ƏSƏRLƏRİ

| | |
|---|---|
| Ü.Hacıbəyli | Cəngi |
| | Rəqs |
| | (“Koroğlu” operasından) |
| | Qızların xoru |
| | (“Arşın mal alan” operettasından) |
| M.Maqomayev | Marş |
| T.Bakıxanov | Görüş yerimiz |
| | Sözsüz mahnı |
| S.Rüstəmov | Fasilə marşı |
| | Rəqs |
| T.Quliyev | Əziz dost |

| | |
|---|---|
| | (“Bəxtiyar” k/f-dən) |
| | Arzular |
| | (“Görüş” k/f-dən) |
| M.Adil Gəray | Səfikürd |
| S.Ələsgərov | Lirik pyes |
| H.Xanməmmədov | Yadıma düşdü |
| V.Adıgözəlov | Qərənfil |
| E.Sabitoğlu | Bura Qafqazdır |
| B.Hüseynli | Marş |

## XARİCİ ÖLKƏ BƏSTƏKARLARININ ƏSƏRLƏRİ

| | |
|---|---|
| S.Küi | Oriyental |
| Yəhudi xalq mahnısı | Hava Nagila |
| H.Kekkert | Marş |
| P.İ.Çaykovski | Neapolitan mahnısı |
| V.A.Motsart | Beşik nəğməsi |
| N.Baklanova | Mazurka |
| | Yallı |
| Rus xalq mahnısı | Kalinka |
| D.Şostakoviç | Rəqs |
| İ.Haydn | Macar rondosu |
| V.Kosmo | Oyuncaq |
| S.Raxmaninov | Polka |
| R.Lovland | Sirli bağın mahnısı |
| K.Velazque | Besame Mucho |

---

***Qeyd:*** *Müəllim mülahizəsinə görə proqramda verilən təxmini repertuarı başqaları ilə də əvəz edə bilər.*

## DÖRDÜNCÜ SİNİF (MUĞAM)

## İLLİK TƏLƏBAT

Tədris ili ərzində Bayatı Şiraz və Şur muğamlarını aşağıdakı şöbələrlə keçməli:

**Bayatı-Şiraz:** Bərdaşt

Mayə
Nişibi-fəraz
Bayatı-İsfahan
Bayatı-Şiraza ayaq

**Şur:** Bərdaşt
Mayə
Şur-Şahnaz
Bayatı-Türk
Şura ayaq

“Heyratı” zərbi muğamı.

6-8 Azərbaycan xalq rəqsi
2 muğam rəngi keçilməlidir.

## TƏXMİNİ REPERTUAR

### Azərbaycan xalq rəqsləri

Mirzəyi
Qoçəli
Cəngi
Dərvişi
Tərəkəmə
Duy-duy
Ulduz
Ənzəli
Xançobanı
Xəzəri
Təhməzi
Şərur
Xalabacı
Şalaxo
Qazağı

Beşatılan Bakı
Ondördü
Qafqazı
(müəllifi: T.Dəmirov)
Solmaz
(müəllifi: T.Dəmirov)
Elmira
(müəllifi: T.Dəmirov)
Dağlılar
(müəllifi: A.İsrafilov)

---

***Qeyd:*** *Müəllim mülahizəsinə görə proqramda verilən təxmini repertuarı başqaları ilə də əvəz edə bilər.*

## AKADEMİK DİNLƏYİŞLƏR

**I yarımildə yanvar ayında keçirilən akademik dinləyişin tələbatı:**

- 2 müxtəlif xarakterli pyes;
- 1 muğam;
- 2 rəqs.

**II yarımildə iyun ayında keçirilən akademik dinləyişin tələbatı:**

- 2 müxtəlif xarakterli pyes;
- 1 muğam və Heyratı zərbi muğamı;
- 1 rəqs.

---

***Qeyd:*** *Texniki və akademik dinləyişlər zamanı şagirdin qiymətləndirilməsində müəllimin rəyi nəzərə alınmalıdır.*

## BEŞİNCİ SİNİF (NOT)

### İLLİK TƏLƏBAT

Tədris ili müddətində şagird aşağıdakıları keçməlidir:

**I YARIMİL** – Si major (H Dur), sol diyez minor (gis moll) qammalarını çərək, səkkizlik, onaltılıq notlarla, arpeciolarla birlikdə ifa etməli.

**II YARIMİL –** Re bemol major (Des Dur), si bemol minor (b moll) qammalarını çərək, səkkizlik, onaltılıq notlarla, arpeciolarla birlikdə ifa etməli.

Tədris ili ərzində 2-4 etüd, 4-6 müxtəlif xarakterli pyes keçməli.

## TƏXMİNİ REPERTUAR

### AZƏRBAYCAN BƏSTƏKARLARININ ƏSƏRLƏRİ

| | |
|---|---|
| Ü.Hacıbəyli | Uvertüra |
| | ("Koroğlu" operasından) |
| | Sənsiz |
| | I Fantaziya |
| | Sevgili canan |
| | Müqəddimə |
| | ("Arşın mal alan" operettasından) |
| M.Maqomayev | Radio marşı |
| Q.Qarayev | Qızların rəqsi |
| | ("İldırımlı yollarla" baletindən) |
| | Vals |
| | ("Yeddi gözəl" baletindən) |
| F.Əmirov | Göy-göl |
| | Bulaq başında |
| A.Məlikov | Türk qızlarının rəqsi |
| | ("Məhəbbət əfsanəsi" baletindən) |
| C.Cahangirov | Süzən qızlar |
| T.Quliyev | Qaytağı |
| | İlk Bahar |
| | Vals |
| | ("Görüş" k/f-dən) |
| M.Adil Gəray | Bağçakürd |
| | Şahnazsayağı |
| Q.Hüseynli | Ay işığında |
| S.Ələsgərov | Skertso |

| | |
|---|---|
| | Tarantella |
| | Rəqs-tokkata |
| | Daimi hərəkət |
| E.Sabitoğlu | Vals |
| | (“Bizim Cəbiş” müəllim k/f-dən) |
| V.Adıgözəlov | Skertso |
| | Laylay |
| | Bayram süitası |
| X.Cəfərov | Lirik rəqs |
| S.Əliyeva | Ana |
| Ə.Bakıxanov | Sevgilimsən gözəl yar |

## XARİCİ ÖLKƏ BƏSTƏKARLARININ ƏSƏRLƏRİ

| | |
|---|---|
| R.Lagidze | Tbilisi haqqında mahnı |
| A.Petrov | Vals |
| | (“Avtomobildən qorun” k/f-dən) |
| D.Şostakoviç | Second vals |
| İ.Şatrov | Vals (Mancuriya təpələrində) |
| E.Qriq | Anitranın rəqsi |
| | (“Per Günt” suitasından) |
| J.Bize | Uvertura |
| | (“Karmen” operasından) |
| M.Oqinski | Polonez |
| S.Bubençov | Qaraçı rəqsi |
| İ.Brams | Macar rəqsi |
| V.A.Motsart | Rondo |
| V.Monti | Çardaş |
| F.Şubert | Serenada |
| A.Villoldo | Tango El Choclo |
| A.Piazzolla | Oblivion |
| Z.Paliaşvili | Lekuri |
| | (“Daisi” operasından) |
| N.Rimski-Korsakov | Arı uçuşu |

| | |
|---|---|
| Z.Abreu | Tico-Tico |
| Q.Diniku | Mart yallısı |
| Rumın rəqsi | 7 pillə |

---

***Qeyd:*** *Müəllim mülahizəsinə görə proqramda verilən təxmini repertuarı başqaları ilə də əvəz edə bilər.*

## BEŞİNCİ SİNİF (MUĞAM)

## İLLİK TƏLƏBAT

Tədris ili ərzində Zabul Segah və Humayun muğamlarını aşağıdakı şöbələrlə keçməli:

**Humayun:**
- Bərdaşt
- Mayə
- Feli
- Mölәvi
- Humayuna ayaq

**Zabul Segah:**
- Bərdaşt
- Mayə
- Manəndi-Müxalif
- Segah
- Zabul Segaha ayaq

**“**Qarabağ-şikəstəsi” zərbi muğamı.

6-8 Azərbaycan xalq rəqsləri

2-4 Muğam rəngləri keçilməlidir.

## TƏXMİNİ REPERTUAR

### Azərbaycan xalq rəqsləri

Vağzalı

Bakı

Kinto

Keçməməsi

Matanı

Güldəstə

Cütcü

Tiflisi

Nabat xanım

(müəllifi: T.Dəmirov)

Rəfiqə

(müəllifi: T.Dəmirov)

Xumari

(müəllifi: T.Dəmirov)

Eynuri

(müəllifi: T.Dəmirov)

Bəxtəvəri

(müəllifi: Z.Mirzəyev)

Arifi

(müəllifi: Z.Mirzəyev)

Muğam və rəqs

(müəllifi: Z.Mirzəyev)

Rəhimi

(müəllifi: Z.Mirzəyev)

Basqalı

(müəllifi: A.İsrafilov)

Aynurə

(müəllifi: A.İsrafilov)

Şüvəlanı (Həyatı)

(müəllifi: Ə.Əşrəfzadə)

---

***Qeyd:*** *Müəllim mülahizəsinə görə proqramda verilən təxmini repertuarı başqaları ilə də əvəz edə bilər.*

## TƏDRİS İLİ ƏRZİNDƏ KEÇİRİLƏN TEXNİKİ DİNLƏYİŞ

Mart ayında beş işarəli qammalar, etüd və musiqi terminləri.

## DİNLƏYİŞ VƏ İMTAHAN

**I yarımildə yanvar ayında keçirilən akademik dinləyişin tələbləri:**

– 2 müxtəlif xarakterli pyes;

– 1 muğam;

– 2 rəqs.

**II yarımildə may ayında keçirilən dinləyişin tələbləri:**

– Buraxılış imtahanında tələb olunan tam proqram;

– 1 muğam, 1 zərbi muğamı, 1 rəqs.

## BURAXILIŞ İMTAHANININ TƏLƏBATI

– 1 etüd;

– 2 müxtəlif xarakterli pyes (onlardan biri xarici ölkə bəstəkarlarının əsərlərindən olmalıdır);

– 2 rəqs;

– Tədris illəri ərzində keçilən muğamlardan biri və zərbi muğam.

---

***Qeyd:*** *Şagirdin ifaçılıq imkanı və bacarığına uyğun olaraq iki müxtəlif pyes əvəzinə bir iri həcmli əsər (sərbəst seçim) ifa oluna bilər.*

## TÖVSİYƏ OLUNAN MƏCMUƏ VƏ DƏRS VƏSAİTLƏTİ


1. N.Rəsulov "Qarmon ilə fortepiano üçün pyeslər məcmuəsi" I kitab. Bakı, 1998
2. N.Rəsulov "Qarmon məktəbi". Bakı, "Çaşıoğlu", 1999
3. X.Dadaşov "Qarmon məktəbi". Bakı, "Şirvannəşr", 1999
4. N.Rəsulov "Qarmon ilə fortepiano üçün pyeslər məcmuəsi"II kitab. Bakı, "Çaşıoğlu", 1999
5. N.Rəsulov "Qarmon ilə fortepiano üçün pyeslər məcmuəsi". Bakı, "Çaşıoğlu", 2002
6. X.Dadaşov "Qarmon məktəbi". Bakı, "Şirvannəşr", 2004
7. Ə.Bayramov "Qarmon məktəbi". Bakı, 2004
8. Ə.Bayramov "Qarmon üçün ən gözəl melodiyalar".Bakı, 2006
9. Z.Mirzəyev "Qarmon məktəbi". Bakı, "Adiloğlu", 2008
10. N.Rəsulov "Qarmon ilə fortepiano üçün Pyeslər məcmuəsi". Bakı, "Təhsil", 2014
11. N.Rəsulov "Qarmon ilə fortepiano üçün Pyeslər məcmuəsi" I kitab. Bakı, "Təhsil", 2014
12. X.Dadaşov "Qarmon ilə fortepiano üçün işlənmiş əsərlər məcmuəsi". Bakı, 2015
13. G.Qasımova "Addım-Adım İrəli" I cild. Bakı, "Çaşıoğlu", 2015
14. G.Qasımova "Addım-Adım İrəli" II cild. Bakı, "Çaşıoğlu", 2017
15. S.Köçərli "Balalara hədiyyə".Sumqayıt, "Azəri", 2021
16. K.Hüseynova "Qarmon ilə fortepiano üçün Pyeslər məcmuəsi" I cild. Bakı, 2021
17. F.Baxışəliyev "Azərbaycan və xarici ölkə bəstəkarlarının qarmon və fortepiano üçün işlənilmiş və köçürülmüş əsərləri". Bakı, 2022
18. X.Dadaşov "Qarmon ilə fortepiano üçün işlənmiş əsərlər"II cild. Bakı, 2022
19. N.Hacıyev "Qarmon və fortepiano üçün pyeslər məcmuəsi" Bakı, 2023.


## Elektron mənbə

www.qarmon.az S.Köçərli "Azərbaycan Qarmonu" portalı

**Qeyd:** Portal vasitəsilə "Azərbaycan qarmonu" haqqında ətraflı məlumat almaqla yanaşı, qeyd olunan dərs vəsaitlərinin **pdf** versiyasını əldə etmək mümkündür.

# MUSİQİ TERMİNLƏRİ

| Adı | Tələffüzü | Tərcüməsi | |
|---|---|---|---|
| | | Azərbaycan dilində | Rus dilində |
| **Adajio** | Adajio (адажио) | Ahəstə | Медленно |
| **Allegro** | Alleqro (аллегро) | Tez | Скоро, быстро |
| **Moderato** | Moderato (модерато) | Mülayim | Умеренно |
| **Legato** | Leqato (легато) | Rabitəli, əlaqəli | Связно |
| **Non legato** | Non leqato (нон легато) | Rabitəsiz | Не связно |
| **Staccato** | Stakkato (стаккато) | Qırıq-qırıq | Отрывисто |
| **Piano** | Piano (пиано) | Yavaş | Тихо |
| **Pianissimo** | Pianissimo (пианиссимо) | Çox yavaş | Очень тихо |
| **Forte** | Forte (форте) | Bərk, güclü | Громко |
| **Fortissimo** | Fortissimo (фортиссимо) | Çox bərk, güclü | Очень громко |
| **Mezzo** | Metso (меццо) | Orta | Наполовину |
| **Mezzo piano** | Metso piano (меццо пиано) | Orta yavaş | Не очень тихо |
| **Mezzo forte** | Metso forte (меццо форте) | Orta güclü | Не очень громко |
| **Crescendo** | Kreşendo (крещендо) | Səsi tədricən gücləndirmək | Постепенное усиление звука |
| **Diminuendo** | Diminuendo | Səsi tədricən | Постепенно |

| | | | |
|---|---|---|---|
| | (диминуендо ) | azaltmaq | уменьшая силу звука |
| **Ritenuto** | Ritenuto (ритенуто) | Yavaşıdaraq | Замедляя |
| **Fine** | Fine (фине) | Son | Конец |
| **Da capo al fine** | Da capo al fine (да капо альфине) | Başdan «son» sözünə qədər | С начало до слова «конец» |
| **Coda** | Coda (кода) | Nəticə | Заключение |
| **Allegretto** | Alleqretto (аллегретто) | Alleqrodan yavaş | Медленнее чем “Аллегро” |
| **Vivo** | Vivo (виво) | Cəld | Живо |
| **Vivace** | Vivaçe (виваче) | Daha da cəld | Очень живо |
| **Presto** | Presto (престо) | Tez- tez | Быстро |
| **Prestissimo** | Prestissimo (престиссимо) | Olduqca tez | Очень быстро |
| **Largo** | Larqo (лярго) | Xeyli geniş | Очень протяжно, широко |
| **Lento** | Lento (ленто) | Aramla, asta | Медленно, протяжно |
| **Andante** | Andante (анданте) | Addımla, tələsmədən | Шагом, не спеша |
| **Andantino** | Andantino (андантино) | Andantedən bir qədərtez | Несколько скорее чем “Andante” |
| **Espressivo** | Espressivo (эспрессиво) | İfadəli | Выразительн о |
| **Cantabile** | Kantabile (кантабиле) | Oxunaqlı | Певуче |

| | | | |
|---|---|---|---|
| **Dolce** | Dolçe (дольче) | Zərif, incə | Нежно |
| **Poco a poco** | Poko a poko (поко а поко) | Tədricən | Понемногу |
| **A tempo** | A tempo (а темпо) | Əvvəlki tempdə | В прежнем темпе |
| **Molto** | Molto (мольто) | Daha da | Очень |
| **Accelerando** | Aççelerando (аччелерандо) | Tezləşdirərək | Ускоряя |
| **Qrave** | Qrave (граве) | Ağır, əhəmiyyətli | Тяжеловесно Важно |
| **Sforzando** | Sfortsando (сфорцандо) | Qəfil vurğu | Внезапный Акцент |
| **Ad libitum** | Ad libitum (ад либитум) | İstəyə uyğun olaraq, sərbəst | По желанию |
| **Maestoso** | Maestozo (маэстозо) | Möhtəşəm, əzəmətli | Торжественно Величаво |
| **Energico** | Enerciko (энерджико) | Enerjili | Энергично |
| **Appassionato** | Appassionata (аппассионата) | Ehtiraslı | Страстно |
| **Brillante** | Brilliante (бриллианте) | Parlaq | Блестяще |
| **Allargando** | Allarqando (алляргандо) | Genişləndirərək | Расширяя |